# BALIQLARIN EPİZOOTOLOJİ VƏZİYYƏTİ HAQQINDA



- Balıq əti tərkibində əsasən çoxlu miqdarda tam keyfiyyətli, həyat üçün zəruri olan amin turşuları ilə zəngin zülallara malik bioloji qiymətli yeyinti məhsuludur. Bununla əlaqədar olaraq insanları daşıyıcısı və ya xəstəlik törədicisininin mənbəyi olan balıq xəstəliklərindən mühafizə məsələləri aktuallığı ilə seçilir və bu sahədə elmi- tədqiqat işlərinin aparılması vacibdir.
- Azərbaycanda balıq xəstəliklərinin planlı surətdə öyrənilməsinə keçən əsrin 60-cı illərindən başlanmış və hal- hazırda da davam etdirilir.
- İxtioparazitoloqlar tərəfindən respublikanın ayrı-ayrı təbii su hövzələrində, balıqartırma və balıqyetişdirmə zavodlarında və təsərrüfatlarında yaşayan və artırılan balıqlarda ibtidailərin törətdiyi kostioz, xilodonellyoz, ixtioftirioz, monogenetik sorucu qurdların törətdiyi daktilogiroz, girodaktilyoz, trematodların törətdiyi diplostomoz, postodiplostomoz, lentşəkilli qurdların törətdiyi liqulyoz, botriosefalyoz, kariofillyoz, yumru qurdların törətdiyi filometroidoz, tikanbaşlı qurdların törətdiyi akantosefalyoz, parazit xərçəngkimilərin törətdiyi erqazilyoz, arqulyoz, lerneoz və pissikolyoz xəstəlikləri qeyd olunmuşdur.
- Bu xəstəliklərin ayrı- ayrı balıqçılıq obyektləri üzrə yayılması, epizootologiyası, biotik və abiotik faktorlardan asılılığı, patogenezi öyrənilmiş, daktilogiroz, girodaktilyoz, botriosefalyoz, filometroidoz, akantosefalyoz xəstəliklərinə qarşı mübarizə tədbirləri işlənmiş, təsərrüfatlarda tətbiq olunmuş, botriosefalyoz, liqulyoz və akantosefalyoz xəstəliklərində balıq diri ikən helmintkoproloji müayinə ilə xəstəliyin müəyyənləşdirilməsi, helmint yumurtalarının dezinvaziya edilməsi üzrə müvafiq nəticə əldə edilmişdir. Bu sahədə tədqiqatlar davam etdirilir.
- Eyni zamanda ayrı- ayrı balıqçılıq təsərrüfatlarında və axmazlarda infeksion xəstəliklərdən məxmərəyin və saproleqniozun geniş yayıldığı müşahidə edilmişdir. Aşağıda Azərbaycanın təbii su hövzələrində, zavodlarında və təsərrüfatlarında yaşayan, artırılan və yetişdirilən balıqların real qorxulu xəstəlikləri göstərilir.